# Mərkəzi Seçki Komissiyasında

## QƏRAR № 43/216

### Mərkəzi Seçki Komissiyasının 2024-cü il 12 sentyabr tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 12 sentyabr tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*14.09.2024*

## QƏRAR № 43/218

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 83 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 42 saylı Sumqayıt birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudova Yasəmən Tağı qızı 11 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 32/100 saylı qərarını mübahisələndirmiş, seçki dairəsinin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin etibarsız hesab olunmasını və seçki dairəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsi barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və Komissiyanın iclasında baxılmışdır.

Müraciət etmiş namizəd Y.T.Mahmudova müraciətində səsvermə günü 42 saylı Sumqayıt birinci seçki dairəsinin bütün seçki məntəqələrində kütləvi pozuntuların olmasını, səsvermənin nəticələri haqqında protokolların tərtib edilməsi zamanı qanun pozuntularına yol verildiyini, adları seçici siyahılarında olmayan seçicilərin səs verməsini, bir şəxsin bir neçə dəfə səs verməsinə şərait yaradılmasını, seçki bülletenlərinin topa şəkildə seçki qutularına atıldığını, mübahisələndirilən qərarın əsaslandırılmadığını və dairə seçki komissiyasında onun müraciətinə baxılan iclasda iştirakının təmin olunmadığını iddia edərək həmin seçki məntəqələri üzrə səsvermənin nəticələrinin ləğv edilməsini tələb etmişdir. Ərizəçi müraciətə mübahisələndirilən seçki məntəqələri üzrə aktlar, elektron məlumat daşıyıcısında olan video və fotogörüntülər əlavə etmişdir.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Ərizəçinin araşdırmada və Mərkəzi Seçki Komissiyasının iclasında iştirakı təmin edilmişdir.

İddia edilən pozuntularla əlaqədar olaraq namizəd Y.T.Mahmudovanın şikayəti 42 saylı Sumqayıt birinci seçki dairəsi dairə seçki komissiyası tərəfindən araşdırılmış, dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 32/100 saylı qərarı ilə müraciət əsassız hesab edilərək təmin olunmamışdır.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Mərkəzi Seçki Komissiyasında şikayətçi Y.T.Mahmudovanın iştirakı ilə aparılmış tam, hərtərəfli, obyektiv araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini müşahidə etmiş müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınmış digər namizəd tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Namizəd Y.T.Mahmudova tərəfindən təyin edilmiş bir sıra seçki subyektlərinin müxtəlif media subyektlərinə səsvermə və səslərin sayılması prosesi barədə müsbət fikirlər ifadə etmələrini, seçicilərin azad və sərbəst şəkildə səs vermələrini, seçkilər zamanı hər hansı qanun pozuntusuna rast gəlmədiklərini özündə əks etdirən müsahibələri də araşdırma materiallarına əlavə edilmişdir. Eyni zamanda namizəd tərəfindən təyin edilmiş məşvərətçi səs hüquqlu üzv imzaladığı aktda səsvermə günü müşahidə apardığı seçki məntəqəsində hər hansı qanun pozuntusunu müşahidə etmədiyini bildirmişdir.

Seçki məntəqələrində baş verməsi iddia edilən pozuntularla bağlı aparılan icraatla müəyyən edilir ki, səsvermə günü 42 saylı Sumqayıt birinci seçki dairəsinin 27 saylı seçki məntəqəsi istisna olmaqla, mübahisələndirilən digər seçki məntəqələrində baş verməsi iddia edilən qanun pozuntuları təsdiqini tapmamış, seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən hallar aşkar edilməmişdir.

Araşdırma ilə seçki dairəsinin 27 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələrinin etibarsız hesab edilməsi üçün hüquqi əsasların yarandığı müəyyən edilmişdir.

Beləliklə, Mahmudova Yasəmən Tağı qızının müraciəti qismən təmin edilməli, 27 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab olunmalı, dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 32/100 saylı qərarı 27 saylı seçki məntəqəsinə aid hissədə ləğv edilməli, digər hissələrdə dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 112-ci, 112-1-ci və 170-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 42 saylı Sumqayıt birinci seçki dairəsi üzrə qeydə alınmış namizəd Mahmudova Yasəmən Tağı qızının 11 sentyabr 2024-cü il tarixli 83 saylı müraciəti qismən təmin olunsun, 27 saylı seçki məntəqəsi üzrə səsvermənin nəticələri etibarsız hesab edilsin.
2. 42 saylı Sumqayıt birinci seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 32/100 saylı qərarı 27 saylı seçki məntəqəsinə aid hissədə ləğv edilsin, digər hissələrdə dəyişdirilmədən saxlanılsın.
3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*14.09.2024*

## QƏRAR № 43/217

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 80 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsi üzrə qeydə alınmış namizəd Muxtarlı Qələndər Şəmil oğlu 11 sentyabr 2024-cü ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçki günü adı çəkilən seçki dairəsinin bəzi seçki məntəqələrində müxtəlif xarakterli qanun pozuntularına yol verildiyini iddia etmiş, həmin seçki dairəsi dairə seçki komissiyasının 9 sentyabr 2024-cü il tarixli 31/146 saylı Qərarını mübahisələndirmiş, qərarın ləğv edilməsi, dairə seçki komissiyasına verdiyi şikayətdə göstərilən pozuntulara əsasən seçki dairəsi üzrə səsvermənin nəticələrinin etibarsız sayılması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir. Ərizəçi araşdırmada iştirak edəcəyini bildirsə də, araşdırmaya gəlməmiş, onun komissiyanın iclasında iştirakı təmin edilmişdir.

Müraciət etmiş deputatlığa qeydə alınmış namizəd Q.Ş.Muxtarlı müraciətində vəkil edilmiş şəxslərinin və məşvərətçi səs hüquqlu komissiya üzvlərinin adından tərtib olunmuş aktlara istinad edərək səsvermə günü 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsinin bir çox seçki məntəqələrinə seçicilərin toplu halda gəldiklərini, müşahidəçilərin səsvermə prosesini izləməsinə şəraitin yaradılmamasını, seçicilərin seçki məntəqəsinə daxil olan zaman sənədlərinin yoxlanılmadığını, seçicilərin barmaqlarının gözə görünməyən mürəkkəblə işarələnmədiyini, 2, 30 və 31 saylı seçki məntəqələrində digər seçki məntəqələrinin ərazilərində yaşayan seçicilərin səs verdiyini, seçki qutusuna topa bülletenlərin atıldığını və seçki məntəqələrində səslərin düzgün hesablanmadığını göstərmişdir.

Ərizəçi müraciətinə mübahisələndirilən seçki məntəqələri üzrə 32 akt və 1 ədəd elektron məlumat daşıyıcısı əlavə etmişdir.

İddia edilən pozuntularla əlaqədar olaraq namizəd Q.Ş.Muxtarlının şikayəti 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsinin dairə seçki komissiyası tərəfindən araşdırılmış, araşdırmanın nəticəsi olaraq dairə seçki komissiyasının hazırda namizəd tərəfindən mübahisələndirilən 9 sentyabr 2024-cü il tarixli 31/146 saylı qərarı ilə müraciət əsassız olduğundan təmin edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Araşdırma namizəd Q.Ş.Muxtarlının təqdim etdiyi materialları və dairə seçki komissiyasından alınan sənədləri tam əhatə etmişdir.

Tam, hərtərəfli, obyektiv araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini öz təşəbbüsü ilə müşahidə etmiş, həmçinin müxtəlif siyasi maraqları təmsil edən müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınmış digər namizədlər tərəfindən verilmiş izahatlarda iddia edilən qanun pozuntuları öz təsdiqini tapmamışdır.

Eyni zamanda namizəd Q.Muxtarlı tərəfindən müxtəlif seçki məntəqələrinə təyin edilmiş məşvərətçi səs hüquqlu üzvlər səsvermə günü seçki məntəqələrində qanun pozuntularına yol verilməməsi barədə aktları öz imzaları ilə təsdiq etmişlər.

Şikayətçi tərəfindən araşdırmaya təqdim olunmuş 89 videogörüntüyə baxış keçirilmiş, həmin görüntülərin 69-nun 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsinə aid olmadığı müəyyən edilmişdir. 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsinə aid olan görüntülərdə seçicilərin iradəsinə bu və ya digər formada təsir edə biləcək hallar müşahidə olunmamışdır.

Araşdırma ilə müəyyən edilmişdir ki, namizəd Q.Ş.Muxtarlının səsvermə günü baş verdiyi iddia edilən qanun pozuntuları ilə əlaqədar müraciətinə dairə seçki komissiyası qanunla nəzərdə tutulmuş qaydada və müddətdə baxmış və Seçki Məcəlləsinə uyğun olaraq əsaslandırılmış qərar qəbul etməklə düzgün hüquqi nəticəyə gəlmişdir.

Beləliklə, araşdırma ilə namizəd Q.Ş.Muxtarlının müraciətinin təmin edilməsi üçün hüquqi əsaslar olmadığından müraciət təmin edilməməli, dairə seçki komissiyasının mübahisələndirilən qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsi üzrə qeydə alınmış namizəd Muxtarlı Qələndər Şəmil oğlunun 11 sentyabr 2024-cü il tarixli 80 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, dairə seçki komissiyasının 9 sentyabr 2024-cü il tarixli 31/146 saylı Qərarı dəyişdirilmədən saxlanılslın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*14.09.2024*

## QƏRAR № 43/219

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 79 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 52 saylı Yevlax seçki dairəsi üzrə Respublikaçı Alternativ (Real) Partiyasından qeydə alınmış namizəd Cəfərov Rəsul Ağahəsən oğlu 2024-cü il sentyabrın 11-də həmin seçki dairəsi dairə seçki komissiyasının hərəkətsizliyi və bəzi seçki məntəqələrində baş verməsi ehtimal edilən pozuntular barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Müəyyən olunmuşdur ki, namizəd tərəfindən 52 saylı Yevlax seçki dairəsinin dairə seçki komissiyasına 4 sentyabr 2024-cü il tarixdə elektron imza ilə təsdiqlənməyən müraciət göndərilmişdir. Həmin müraciətin Seçki Məcəlləsinin 112.5-ci maddəsinin tələblərinə uyğunlaşdırılması məqsədilə elektron müraciətin onun tərəfindən göndərilməsinin təsdiqi olaraq, namizəd R.A.Cəfərova müraciətin elektron imza ilə təsdiq edilməsi və ya müraciətin şəxsən imzalanması ilə bağlı dəfələrlə müraciət edilsə də, o, bundan imtina etmişdir.

Ərizə qanunvericiliyin tələbinə uyğun olaraq imzalanmadığından, dairə seçki komissiyası tərəfindən "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 2.6-cı bəndinə uyğun olaraq anonim müraciət kimi işə alınmışdır.

Beləliklə, göstərilənlərə əsasən dairə seçki komissiyasının hərəkətsizliyi öz təsdiqini tapmamışdır.

Müəyyən edilmişdir ki, seçki məntəqələrində səsvermə günü baş verməsi iddia edilən qanun pozuntuları ilə bağlı hissədə şikayət seçki qanunvericiliyində nəzərdə tutulmuş müddət ötürülməklə verilmiş və bu səbəbdən də ekspert qrupunun üzvü müraciətin bu hissədə onu göndərən şəxsə geri qaytarılması barədə rəy vermişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 2-ci hissəsinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 52 saylı Yevlax seçki dairəsi üzrə Respublikaçı Alternativ (Real) Partiyasından qeydə alınmış namizəd Cəfərov Rəsul Ağahəsən oğlunun 11 sentyabr 2024-cü il tarixli 79 saylı müraciəti 52 saylı Yevlax seçki dairəsinin dairə seçki komissiyasının hərəkətsizliyi hissəsində əsassız olduğundan təmin edilməsin, digər hissədə isə şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan onu təqdim edən şəxsə geri göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*14.09.2024*



## QƏRAR № 43/220

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 82 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 82 saylı İmişli-Saatlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Nəcəfquliyeva Leyla Rəhim qızı 2024-cü il sentyabrın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra-Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək seçki günü həmin seçki dairəsinin əksər seçki məntəqələrində müxtəlif xarakterli qanun pozuntularına yol verildiyini iddia etmiş, həmin seçki dairəsi dairə seçki komissiyasının 9 sentyabr 2024-cü il tarixli 26/62 saylı qərarını mübahisələndirmiş, qərarın ləğv edilməsini, seçki dairəsi üzrə nəticələrin etibarsız sayılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, bu barədə müvafiq rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmişdir.

Araşdırma müddətində, 13 sentyabr 2024-cü il tarixdə namizəd L.R.Nəcəfquliyeva Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, heç bir şikayətinin və tələbinin olmadığını bildirmiş, həmin müraciətin araşdırılmasına xitam verilməsini xahiş etmişdir.

Beləliklə, namizəd L.R.Nəcəfquliyevanın ərizəsi nəzərə alınmalı və müraciətin araşdırılmasına xitam verilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 82 saylı İmişli-Saatlı seçki dairəsi üzrə qeydə alınmış namizəd Nəcəfquliyeva Leyla Rəhim qızının 11 sentyabr 2024-cü il tarixli 82 saylı müraciətinin araşdırılmasına xitam verilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*14.09.2024*

## QƏRAR № 43/221

### 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 11 sentyabr 2024-cü il tarixli 81 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd Dadaşov Rəşad Rufiq oğlu 2024-cü il sentyabrın 11-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) müraciət etmiş, seçki günü həmin seçki dairəsinin əksər seçki məntəqələrində müxtəlif xarakterli qanun pozuntularına yol verildiyini iddia edərək seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 26/65 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini, seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız sayılmasını və müvafiq tədbirlər görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 112-ci, 112-1-ci maddələrinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Araşdırma ilə bağlı müraciət etmiş namizədlə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, onun araşdırmada və komissiyanın iclasında iştirakı təmin olunmuşdur.

R.R.Dadaşov müraciətində seçkiqabağı təşviqat dövründə namizədlərə qeyri-bərabər şərait yaradıldığını, seçkiqabağı təşviqat kampaniyası zamanı qanun pozuntularına yol verildiyini, lider namizədin seçiciləri ələ almağa cəhd etdiyini, onun xeyrinə inzibati resurslardan istifadə olunduğunu, seçkiqabağı görüşlərində dövlət müəssisələrində çalışan vətəndaşların iştirak etdiyini, seçki məntəqələrinin tərtibatının düzgün olmadığını, seçki günü seçki məntəqələrində müşahidəçilərin yerində olmadığını, müşahidə aparılması zamanı onlara manеələr yaradıldığını, səlahiyyəti olmayan şəxslərin seçki prosesinə müdaxiləsini, seçki qutularına birdən artıq bülleten atıldığını, səslərin müşahidəçilərin müşahidəsi olmadan səsvermə otağından kənarda sayıldığını, səsvermənin nəticələrinə dair tərtib edilmiş protokolların nüsxəsi tələb edilsə də, onlara təqdim edilmədiyini, məntəqə seçki komissiyası sədrlərinin protokolların nüsxələrini təqdim etmədən seçki məntəqəsini tərk etdiklərini, səslərin sayılması zamanı elan olunan nəticələrlə rəsmi nəticələrin uyğun gəlmədiyini və digər qanun pozuntularının olduğunu iddia edərək seçki dairəsi üzrə seçkilərin nəticələrinin etibarsız sayılmasını, həmçinin dairə seçki komissiyasına eyni məzmunlu müraciəti ilə bağlı həmin dairə seçki komissiyası tərəfindən qəbul olunmuş qərarın ləğvini tələb etmişdir. O, müraciətinə bir ədəd elektron informasiya daşıyıcısı əlavə etmişdir.

Müraciətin seçkiqabağı təşviqatla bağlı hissəsi Seçki Məcəlləsi ilə müəyyən edilmiş şikayətvermə müddəti ötürülməklə verildiyindən bu hissədə araşdırma aparılmamışdır.

İddia edilən qanun pozuntuları ilə əlaqədar namizəd R.R.Dadaşovun şikayəti 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsinin dairə seçki komissiyası tərəfindən araşdırılmış, araşdırmanın nəticəsi olaraq dairə seçki komissiyasının hazırda namizəd tərəfindən mübahisələndirilən 7 sentyabr 2024-cü il tarixli 26/65 saylı qərarı ilə müraciət əsassız olduğundan təmin edilməmişdir.

Araşdırma ilə əlaqədar dairə seçki komissiyasından müvafiq sənədlər alınaraq araşdırma materiallarına əlavə edilmiş və təkrarən araşdırılmışdır. Müəyyən edilmişdir ki, R.R.Dadaşov səsvermə günü 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsinin seçki məntəqələrində baş verməsi iddia olunan qanun pozuntuları ilə əlaqədar dairə seçki komissiyasına bir ədəd DVD disk təqdim etmişdir. Dairə seçki komissiyasında aparılan araşdırma zamanı müəyyən edilmişdir ki, namizəd seçki dairəsinin bütün seçki məntəqələrində qanun pozuntularının baş verməsini iddia etsə də, təqdim etdiyi DVD diskdə yalnız 3 seçki məntəqəsində baş verməsi iddia olunan görüntülər əks olunmuşdur. Dairə seçki komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupu tərəfindən 2, 34 və 36 saylı seçki məntəqələrində baş verməsi iddia olunan 5 ədəd videogörüntüyə baxış keçirilmiş, görüntülərdə seçicilərin iradəsinə hər hansı formada təsir edə biləcək hallar müşahidə olunmamışdır.

Dairə seçki komissiyasında aparılan araşdırma zamanı namizədin mübahisələndirdiyi seçki məntəqələri üzrə müvafiq seçki subyektlərindən, o cümlədən səsvermə günü həmin seçki məntəqələrində səsvermə prosesini öz təşəbbüsü ilə müşahidə etmiş, həmçinin müxtəlif siyasi maraqları təmsil edən müşahidəçilər, məntəqə seçki komissiyalarının sədrləri, katibləri, üzvləri, qeydə alınmış digər namizədlər tərəfindən verilmiş izahatlarda və videogörüntülərdə səsvermə günü seçicilərin iradəsini müəyyənləşdirməyə imkan verməyən qanun pozuntuları öz təsdiqini tapmadığından, dairə seçki komissiyası namizədin müraciətini təmin etməməklə düzgün hüquqi nəticəyə gəlmişdir.

Mərkəzi Seçki Komissiyasında aparılan araşdırma zamanı namizəd R.R.Dadaşovun iştirakı ilə şikayətə əlavə edilmiş bir ədəd elektron məlumat daşıyıcısında olan 37 videogörüntüyə və 11 fotoşəkilə baxış keçirilmişdir. Müəyyən edilmişdir ki, videogörüntülərdən 6-sı, fotoşəkillərdən isə 4-ü seçkiqabağı təşviqat mərhələsinə, digərləri isə əsasən namizədin özü və vəkil edilmiş şəxsi tərəfindən səsvermə günü müxtəlif seçki məntəqələrində və onların ətrafında çəkilmiş görüntülərdir.

Qeyd edilən videogörüntülərdən 5-i dairə seçki komissiyasında araşdırılmış və qanun pozuntusu halları müəyyən edilməmişdir.

Seçki dairəsinin 14 saylı seçki məntəqəsində səslərin sayılması prosesində 4 ədəd səsvermə bülleteninin etibarsız olması barədə məlumatın əks olunduğu videogörüntü ilə əlaqədar həmin məntəqə seçki komissiyasının üzvlərindən alınmış izahatlardan müəyyən edilir ki, Seçki Məcəlləsinin 106.4-cü maddəsinin tələblərinə uyğun olaraq məntəqə seçki komissiyası tərəfindən həmin bülletenlərdəki səslərin etibarsız olub-olmaması məsələsi müzakirə edilərək səsvermə yolu ilə səslərin etibarlı olması qərara alınmış və həmin səslər müvafiq namizədlərin səslərinə əlavə edilmişdir.

Araşdırma ilə təqdim edilmiş digər videogörüntülərdə əks olunmuş iddia edilən qanun pozuntuları da öz təsdiqini tapmamışdır.

Beləliklə, məlum olmuşdur ki, namizəd R.R.Dadaşovun səsvermə günü baş verməsini iddia etdiyi qanun pozuntuları ilə əlaqədar müraciətinə dairə seçki komissiyası qanunla nəzərdə tutulmuş qaydada və müddətdə baxmış və müvafiq qərar qəbul etmişdir.

Müraciətdə iddia edilən digər qanun pozuntularına dair göstərilən hallar aparılmış araşdırma ilə öz təsdiqini tapmamış, 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsi üzrə seçkilər qanunvericiliyin tələblərinə uyğun keçirilmişdir.

Göstərilənlərə əsasən şikayətin təmin edilməsi və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsaslar müəyyən edilməmişdir.

Beləliklə, araşdırma ilə 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsi üzrə qeydə alınmış namizəd R.R.Dadaşovun müraciətinin təmin edilməsi üçün hüquqi əsaslar olmadığından müraciət təmin edilməməli, həmin seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 26/65 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 65 saylı Salyan-Biləsuvar-Neftçala seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizəd Dadaşov Rəşad Rufiq oğlunun 11 sentyabr 2024-cü il tarixli 81 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, həmin seçki dairəsi dairə seçki komissiyasının 7 sentyabr 2024-cü il tarixli 26/65 saylı qərarı dəyişdirilmədən saxlanılsın.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr Məzahir Pənahov**
**Katib Arifə Muxtarova**
**Katib Mikayıl Rəhimov**

*14.09.2024*

Azərbaycan.- 2024.- 15 sentyabr (№ 201).- S.6-7.